

**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# "SÖZDƏN-SÖZƏ, DİLDƏN-DİLƏ YOL GƏLDİM"

***Bu yazını poeziyamızda öz orijinal dəst-xətti ilə seçilən rəssam-şair Məmməd Dəmirçioğlunun əziz xatirəsinə həsr edirəm. Onun vaxtsız vəfatı hamı kimi məni də dərindən sarsıtdı. Qəbri nurla dolsun!***

**Qəd ənarəl-eşqu lil-üşşaqi minhacəl-hüda**
**Saliki-rahi-həqiqət eşqə eylər iqtida.**

***(M.Füzuli)***

**Ağu içərsə nuş olsun, süci içərsə xoş olsun,**
**Yunis ilə yoldaş olsun gəlsün Allahına gedən.**

**(Yunis Əmrə)**

Sufi təliminə görə yaranmışların ən dəyərlisi olan insan (əşrəfül-əşya) əbədi həqiqət aləminə qovuşmaq üçün müəyyən sınaqlardan keçməlidir. Yəni insan, öz kökünə, əslinə qayıtmalıdır, cüzvlər küllə, damlalar dəryaya qovuşmalıdır.İnsandan Allaha yol bax, bu yol insanı kamillik mərhələsinə aparıb çıxarır. Sufilərə görə bu yolu başa vurmaq üçün insan Şəriət, Təriqət, Mərifət və Həqiqət mərhələlərini keçməlidir. Sufizmlə məşğul olan araşdırıcılar yazırlar ki, Şəriət mərhələsində insan (sufi) islamiyyətin bütün ehkam və qaydalarını sözsüz icra etməlidir. O, bu mərhələdə meyl və pəhriz məqamlarını dürüst bilməli, halal və haram hüdudlarını ayırmalıdır. İkinci-Təriqət mərhələsində insan Allahı dərk etmək yoluna daxil olmaq və özünü "ilahi ruh" ilə birləşdirməyə hazırlamalıdır. Bu mərhələdə sufi təriqətinə daxil olan hər bir "mürid" (şagird, tələbə) özünə müqəddəs bir rəhbər, "Mürşid" axtarmalı və şəxsi iradəsindən əl çəkərək onun göstərişlərinə qeydsiz-şərsiz əməl etməlidir. Üçüncü mərhələ Mərifətdir, yəni kainatı üluhiyyətlə vəhdətdə dərk etməkdir. Dördüncüsü, Həqiqətdir, yəni Allahın özü ilə birləşmək, özünü və maddi varlığı unudaraq "tərkidünya" olmaq, "fənayə" qovuşmaqdır. Təsəvvüfün orta əsrlərdə ən qüvvətli bir dini-fəlsəfi cərəyan olduğunu təsdiqləməyə ehtiyac yoxdur. Bu cərəyanı qətiyyən İslama qarşı əks bir dünyagörüşü hesab etmək olmaz. Sadəcə olaraq, bir sıra fərqli baxışlar diqqəti cəlb edir. Görkəmli tənqidçi Yaşar Qarayev yazırdı ki: "Təsəvvüf-həm din, həm də fəlsəfədir, yaxud, ayrılıqda nə din, nə də fəlsəfədir. Dindən fərqi: insanı və təbiəti o, xaliqin yaratdığı, yoxdan var etdiyi xilqət hesab eləmir, xaliqin özü, onun zərrələri, görüntüləri hesab edir. Dindar ibadətlə, sufi-eşqlə, kamala yetməklə haqqa yetmək yolunu tutur".

Ümumiyyətlə, islam təsəvvüfü ilə bağlı çox mətləblər bizdə hələ tam açıqlanmayıb. Xüsusilə,təsəvvüfün poeziyada və incəsənətin digər sahələrində inikası məsələsi də öz geniş, konseptual həllini gözləyir. Belə məsələlərdən biri də İRFANdır. Nədir irfan? Əgər belə demək mümkünsə, lap qısaca bir cavab: İrfan təsəvvüfün poeziyasıdır, Allahın özünü, onun yaratdığı gözəllikləri, insan kamilliyini Eşqin gözüylə oxumaqdır.

İrfan poeziyasından söz açanda yada düşən ilk şair Yunis Əmrə olur.

**Sevərəm bən səni candan içərü,**
**Yolum ötməz bu ərkandan içərü.**

**Nərəyə baqarsam könlüm tolusın,**
**Səni qanda qoyam bəndən içərü?!**

**O bir dilbərdürür, yoqdur nişanı,**
**Nişan yoqdur binişandan içərü.**

**Bəni sorma bana, bəndə dəgülvən,**
**Surətüm boş yürür tondan içərü.**

**Şəriət, təriqət yoldur varana,**
**Həqiqət, mərifət andan içərü.**

**Süleyman quş dilin bilir dedilər,**
**Bu nə məzhəbdürür dindən içərü?!**

**Dinün tərk edənün küfrdür işi,**
**Bu nə küfrdür imandan içərü?!**

**Keçər ikən Yunis şəş oldu dosta,**
**Ki qaldı qapuda andan içərü.**

Yunis Əmrənin bu məşhur şeirində irfani düşüncə tərzinin bütün modeli əks olunmuşdur. İlk növbədə, burada Allaha böyük, qarşısıalınmaz məhəbbətin təzahürü ilə qarşılaşırıq. Allaha məhəbbət isə candadır, duyğudadır, "içəridə"dir. Tədqiqatçıların fikrincə, onun həyata, insanlara münasibəti dərin bir inam üzərində qurulmuşdur, özü də sufi imanı üzərində.. Bu sufi imanı isə dini ehkamlara itaətlə boyun əyən fanatiklərin imanından fərqlidir. İnsan, öncə qeyd etdiyimiz kimi, Allahın bir zərrəsidir, o zərrə Tanrı əmanətidir.Zərrə-İnsan Bütünə-Allaha aşiqdir. Aşiqlik, Sevgi, Eşq -bunlar sufi poeziyasında adi sözlər deyil, həm də kristallaşmış terminlər, anlayışlardır.

Allaha doğru yol Allahı sevməkdən başlanır və bu, ilahi eşq ilə mümkündür.İlahi eşq irfan poeziyasının başlıca atributudur.İnsan öz Allahını dərk etməyə və ona qovuşmaq üçün, yəni Həqiqətə çatmaq üçün bütün ömrü boyu yol getməlidir. İndi müasir poeziyamızda irfan düşüncəli şair kimi təqdim edəcəyimiz Məmməd Dəmirçioğlunun bir şeirinə müraciət edək, görək Tanrıya qovuşmaq üçün gedilən bu eşq yolunda nələr olur?

**Gön varağa, daş kitaba düzüldüm,**
**Sözdən-sözə, dildən-dilə yol gəldim.**
**Zülüm-zülüm qayalardan süzüldüm,**
**Qətrə-qətrə, gilə-gilə yol gəldim.**

**Sevə-sevə eşq odunda hallandım,**



**Şarkı-şarkı dodaqlarda ballandım,**
**Şırıl-şırıl haqqa sarı yollandım,**
**Seldən-selə, eldən-elə yol gəldim.**

**Zaman-zaman kaman üstdə gərildim,**
**Tağ-tağ olub torpaqlara sərildim.**
**Puçur-puçur, qönçə-qönçə dərildim,**
**Çöldən-çölə, güldən-gülə yol gəldim.**

Diqqət edirsinizmi, bu qoşmada ilahi eşq ilə yola çıxan Aşiq (ona Dərviş də demək olar) Haqqa qovuşmaq "əzablarından" söz açır. Artıq Yunis Əmrə, Nəsimi, Xətai, Füzuli, Nigari dövrü tarixə qovuşub, amma XXI əsrin sufisi yenə Haqq yolunu tutub getməkdədir. Qoşmanın ardına diqqət edin:

**Yüz il yaşa, ömrün sonu ölümdü,**
**Ömür gördüm, ölümdən də zülümdü.**
**Ağ buludlar göyə qalxan külümdü-**
**Kökdən-kökə, küldən-külə yol gəldim.**

**Dünya yalan, ömür talan, yol qalan,**
**Yol babamdı, yol atamdı, yol babam,**
**Qopuz üstdə pərdə-pərdə, xal-xalam,**
**Bəmdən-bəmə, zildən-zilə yol gəldim.**

**Dəmirçoğlu azı tapdı, çox gördü,**
**Qanlı sinəm öz yayından ox gördü.**
**Göz açınca var olanı yox gördüm,**
**Gedə-gedə, gələ-gələ yol gəldim,**
**Ölə-ölə, gülə-gülə yol gəldim.**

Bu qoşmada irfani düşüncə tərzi öz parlaq ifadəsini tapıb və şeiri oxuduqca böyük bir Eşq ilə Allahı -hər gözə, hər könülə görünməyən Tanrını dərk etməyə və tədricən ona qovuşmağa can atan bir sufinin ömür yolunu izləyirik. Şeirdəki söz təkrarları (qətrə-qətrə, gilə-gilə, zülüm-zülüm-zülüm, şırıl-şırıl, şarkı-şarkı, zaman-zaman, tağ-tağ, puçur-puçur, qönçə-qönçə, kök-kök, kül-kül, ölə-ölə, gülə-gülə və s.) "fənafillaha" (Allahda əriyib yox olmağa) qədərki yolun mənzərəsini əks etdirir.

Tənqidçi Rüstəm Kamal doğru qeyd edir ki: "Onun şeirlərində nəfəs sətirlərin, bəndlərin arasında qırılıb qalmır. Nəfəs onun şeirlərini səsli, havalı edir. Şeirlərindəki xalq sufiliyini poetik ləhcənin yaddaşı çəkib gətirir. Türk inanc poeziyasını (Yunis Əmrə, Pir Sultan Abdal, Şah Xətai ) stilizasiya etmir. İnanc fəlsəfəsi onun içindədir".

Əlbəttə, Məmməd Dəmirçioğlunun Eşq ilə vardığı YOL bizdən çox mətləbləri açıqlamağı tələb edir. Xüsusilə, inanc fəlsəfəsinin müasir şeirdə yeni bir biçimdə, lakin öz kökünə, qaynağına bağlılığını qətiyyən itirmədən təzahür etməsi maraqlı hadisədir. Məsələ burasındadır ki, müasir irfani poeziyada yeni düşüncə tərzinin modelləşməsi ləng getsə də, hər halda, diqqəti cəlb edən bir xüsusiyyətdir.

**Dünya itib-batacaq**
**Bir gün ahlar içində.**
**Körpəyəmmiş, ay Allah,**
**Bu günahlar içində.**

**Sonu yoxmuş bu dərkin,**
**Ruh bədəndə didərgin.**
**Bu dünyanı bilər kim,-**
**Gülüb ağlar içində.**

"Dünya itib-batacaq Bir gün ahlar içində"-bu, artıq Eşq ilə havalanmış bir könülün mənəvi məstliyindən xəbər vermir. Nədir bu?

**Ulduz arzu, ay -pəridi,**
**Gecə nuru ay təridi.**
**Ulduz axdı, ay əridi,**
**Gecə gündüzə çıxmadı.**

**Hanı sevgili yar, hanı?**
**Dondu damarımın qanı.**
**Gəzdirdi mənə dünyanı,**
**Yol varıb sizə çıxmadı.**

**(ardı var)**